# Heydər Əliyev və Azərbaycanda Olimpiya Hərəkatı

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

Bakı - 2002

*Azərbaycan Milli Olimpiya Komitəsinin*
*10 illik yubileyinə həsr olunur*



**"Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının onillik yubileyi haqqında"**
**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2002-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının onilliyi tamam olur. 2002-ci il həm də Azərbaycan idmançılarının Olimpiya oyunlarında iştirakının 50 illik yubileyidir. İdmançılarımız 1952-ci ildən etibarən Olimpiya oyunlarında iştirak etməyə başlayaraq, SSRİ yığma komandasının tərkibində çıxış etməli olmuşlar. Azərbaycan Olimpiya Hərəkatı tarixini ümumiyyətlə, şərti olaraq üç dövrə bölmək olar: Azərbaycan idmançılarının SSRİ yığma komandası tərkibində Olimpiya oyunlarında iştirak etdiyi 1952-1988-ci illəri əhatə edən dövr, 1988-1992-ci illərdə oyunlara hazırlıq mərhələsini başa vuraraq, orada Müstəqil Dövlətlər Birliyinin yığma komandası tərkibində iştirak etdiyi dövr və Azərbaycanın müstəqil dövlət kimi Beynəlxalq Olimpiya Hərəkatına qoşulduğu 1992-ci ildən sonrakı dövr.

Azərbaycan idmançıları SSRİ yığma komandasının tərkibində Olimpiya oyunlarının doqquzunda 46 idmançı ilə çıxış edərək 10 qızıl, 11 gümüş və 7 bürünc medal qazanmışlar. Sərbəst üsulla güləşçi Rəşid Məmmədbəyovun 1952-ci il Helsinki Olimpiadasında qazandığı gümüş medal Azərbaycan idmançılarının Olimpiya oyunlarında ilk uğuru kimi qiymətləndirilməlidir. Sonrakı olimpiadalarda sprinter məsafələrinə qaçan Yuri Konovalovun, müasir beşnövçü Viktor Mineyevin, voleybolçu İnna Rıskalın, hənbolçular Rəfiqə Şabanovanın və Lyüdmila Şubinanın, qılıncoynadan İlqar Məmmədovun, futbolçu İqor Ponomaryovun və başqalarının uğurlu çıxışları Azərbaycan idmanının nüfuzunu artırdı.

1992-ci il Barselona Olimpiadasında Azərbaycan idmanı Müstəqil Dövlətlər Birliyinin yığma komandasında cəmi 5 nəfərlə təmsil olunsa da, idmançılarımızdan ikisi - cüdoçu Nazim Hüseynov və gimnast Valeri Belinki qızıl medal alaraq, Olimpiya çempionu adına layiq görüldülər.

1992-ci ildə Milli Olimpiya Komitəsinin yaradılması ilə ölkəmizin Olimpiya Hərəkatında yeni bir dövr başlayır. Artıq Azərbaycan müstəqil bir dövlət kimi Beynəlxalq Olimpiya Hərəkatına qoşularaq, öz idman potensialını tam nümayiş etdirmək imkanı əldə etdi. Azərbaycan ilk dəfə olaraq 1996-cı il Atlanta Olimpiadasında 23 nəfərdən ibarət öz milli Olimpiya komandası ilə müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağı altında çıxış etdi. 197 ölkənin iştirak etdiyi bu oyunlarda gənc Azərbaycan Respublikasının 61-ci yer tutması idmanımızın uğuru sayıla bilər. Sərbəst üsulla güləşçi Namiq Abdullayevin həmin yarışlarda qazandığı gümüş medal isə müstəqil Azərbaycan Respublikası idmanının ilk yüksək nəticəsi kimi qiymətlidir.

Azərbaycan Milli Olimpiya Komitəsinin 1997-ci il iyulun 31-də keçirilmiş Baş Məclisində təşkilat məsələlərinə baxılaraq, onun yeni heyətinin seçilməsi komitənin fəaliyyətində müsbət istiqamətdə əsaslı dönüş yarada bilmiş, ölkəmizdə Olimpiya Hərəkatının sürətli inkişafına təkan

vermiş və onun Beynəlxalq Olimpiya Hərəkatına fəal qoşulmasını təmin etmişdir. Azərbaycan Milli Olimpiya Komitəsi ölkəmizdə Olimpiya Hərəkatının və idmanın inkişafı ilə bağlı məqsədyönlü, ardıcıl fəaliyyət göstərərək, qısa müddət ərzində uğurlu göstəricilər əldə etmişdir. İdmançılarımızı Sidney şəhərində keçiriləcək XXVII Yay Olimpiya oyunlarına yüksək səviyyədə hazırlamaq və hazırlıq mərhələsində onların rəsmi beynəlxalq yarışlarda iştirakını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası prezidentinin 20 fevral 1998-ci il tarixli sərəncamı Milli Olimpiya Komitəsinin daha məqsədyönlü iş aparması üçün geniş imkanlar açdı. Oyunlara hazırlıq işlərinin vaxtında və dövlət səviyyəsində aparılması öz müsbət nəticələrini verdi. Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan idmançılarından 31 nəfər 10 idman növü üzrə 2000-ci il XXVII Yay Olimpiya Oyunlarına vəsiqə qazandı və Azərbaycan ikinci dəfə müstəqil dövlət kimi Olimpiadada iştirak etdi.

2000-ci il sentyabrın 15-də Sidney şəhərində başlanmış bu yarışlarda Azərbaycan idmançıları yüksək idman nəticələri göstərdilər. Stend atıcısı Zemfira Meftahətdinova və güləşçi Namiq Abdullayev qızıl, 19 yaşlı gənc boksçu Vüqar Ələkbərov bürünc medal qazandılar. 199 ölkənin iştirak etdiyi Sidney Olimpiadasında Azərbaycanın 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutması idmanımızın böyük qələbəsi idi. Bu Milli Olimpiya Komitəsinin rəhbərliyi altında aparılmış gərgin, planlı, məqsədyönlü işin parlaq nəticəsi kimi qiymətləndirilməlidir.

Milli Olimpiya Komitəsi Azərbaycanda Olimpiya Hərəkatının daha da genişlənməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançılarımızın hazırlıq səviyyəsinin yüksəldilməsi üçün onların beynəlxalq yarışlarda iştirakının təmin olunması yolunda səmərəli fəaliyyət göstərir. Xüsusilə qeyd edilməlidir ki, Milli Olimpiya Komitəsi bu mühüm vəzifələrin həyata keçirilməsi üçün ölkənin müxtəlif dövlət və ictimai qrumları ilə, habelə dünyanın ayrı-ayrı olimpiya və idman təşkilatları ilə sıx əməkdaşlıq əlaqələri yarada bilmişdir. Milli Olimpiya Komitəsinin bu təqdirəlayiq fəaliyyəti ümid verir ki, Azərbaycan xalqı idmançılarımızdan 2004-cü il Afina Olimpiadasında daha böyük qələbələr gözləsin, müstəqil Azərbaycanımızın üçrəngli bayrağı, himnimizin sədaları qədim yunan torpağında daha tez-tez göylərə qalxsın. Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyətini yüksək qiymətləndirərək və onun onillik yubileyinin ölkəmizin ictimai-mədəni həyatı üçün əhəmiyyətini nəzərə alaraq, Azərbaycanda Olimpiya Hərəkatının daha da möhkəmləndirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının onillik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti

-Milli Olimpiya Komitəsi ilə birlikdə yubiley tədbirləri planı hazırlayıb həyata keçirsin;

-bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Heydər Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 12 dekabr 2001-ci i**



İdman böyük qayğı və diqqət tələb edir. Hər hansı ölkədə onun kifayət qədər ardıcıl və məqsədyönlü inkişafı idman ənənəsi, idmanla məşğul olmağa şərait və imkan, idmançılara münasibət, idman mütəxəssislərinin yetişdirilməsi, yarışların təşkili və keçirilməsi, idmançıların beynəlxalq yarışlarda iştirakının təmini, idmanın təbliği, kütləviləşdirilməsi kimi amillərdən çox asılıdır. Belə amillər cərgəsində dövlətin idmana münasibəti özünəməxsus yer tutur. Çünki bu münasibət özü-özlüyündə qeyd olunan məsələlərin müəyyən qisminin həllinə bilavasitə təsir göstərir.

Azərbaycan qədim idman ənənəsi ilə seçilən ölkələrdən biridir. Burada tarixən idmanın müxtəlif növləri inkişaf etmişdir. Bu məsələyə münasibətdə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev demişdir: "Xalqımız, millətimiz genetik xüsusiyyətlərinə görə fiziki cəhətdən sağlam insanlardan ibarət olan xalqdır, millətdir. Fiziki sağlamlıq və fiziki güc, mənəvi sağlamlıqla bərabər Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir. Amma bu xüsusiyyət həmişə bizim daxilimizdə qalıbdır. Keçmiş dövrlərdə də, əsrlərdən-əsrlərə pəhləvanlarımız da, güləşçilərimiz də, oxatanlarımız da, fiziki imkanlarını cürbəcür oyunlarda nümayiş etdirənlərimiz də olubdur. Ancaq məlum olan səbəblərə görə bunlar yalnız öz ölkəmizin çərçivəsində qalıb, dünya miqyasına çıxmayıbdır." Azərbaycan idmanının dünya idmanından bu cür təcrid olunması, beynəlxalq aləmdə özünə layiq şəkildə təmsil olunmaması siyasi səbəblərdən doğmuşdur. Prezident Heydər Əliyev çıxışlarından birində bunu belə izah edir: "Keçmiş dövrlərdə də Azərbaycanın nümayəndələri Olimpiya Oyunlarında təmsil olunmuşdular. Bəziləri yüksək nailiyyətlər də əldə etmişlər. Ancaq onlar keçmiş Sovetlər İttifaqını təmsil etmişlər. Eyni zamanda Azərbaycan tam müstəqil olmadığına görə keçmişdə Sovetlər İttifaqı-



**Azərbaycan dövlətinin rəhbəri Heydər Əliyev Monreal Olimpiadasından medallarla qayıtmış idmançıları - voleybolçu İnna Rıskalı, həndbolçular Lüdmila Şubina və Rəfiqə Şabanovanı qəbul etmişdir. Bakı-1976**

nın ümumi komandasında Azərbaycanın idman ustaları istənilən qədər, istənilən miqdarda heç vaxt təmsil olunmamışdır."

Sovet İttifaqının tərkibində olarkən idmana dövlət səviyyəsində münasibətin əsasları ümumittifaq miqyasında həll olunurdu. Bu, resrublikaya ayrılan büdcənin hansı hissəsinin bilavasitə idman üçün nəzərdə tutulma sının əslində qabaqcadan müəyyənləşdirilməsi idi. Sovet İttifaqında müttəfiq respublikalarda böyük idman qurğularının tikintisi planlı şəkildə aparılmışdır. Hər bir müttəfiq respublikaya bir mərkəzi stadion tikintisi üçün imkan yaradılmış, örtülü idman zallarının, komplekslərin inşasına məhdudiyyət qoyulmuşdu. Təbii ki, bu cəhət ölkə ərazisində böyük idman qurğularının yaradılmasına həmişə maneçilik törətmişdir. İdman yarışlarının keçirilməsi, beynəlxalq turnirlərə, dünya, Avropa çempionatlarına atletlərin göndərilməsi də eyni qaydada tənzimlənirdi. Onu da nəzərə almaq lazımdır ki, müttəfiq respublikanın ittifaq miqyasında güclü olan idmançıları da bəzən subyektiv səbəblərdən yığmaya salınmırdı. Təbii ki, göstərilən cəhətlər müxtəlif idman növlərində Azərbaycan idmançılarının dünya və Avropa çempionatlarında uğurlar qazanmasına mane olmuşdur. Bütün bunlar respublika idmanına öz təsirini göstərirdi. Belə şəraitdə mövcud imkanlardan istifadə etməklə, kütləvi bədən tərbiyəsi üçün nəzərdə tutulanlar hesabına ölkə idmanının inkişafına çalışmaq tələb olunurdu. İkinci yol daxili imkanların səfərbərliyə alınması, həmkarlar İttifaqlarının idman bazalarını yaratmaqla idman şəraitini yaxşılaşdarmağı əhatə edirdi. Məhz bu imkanlardan düzgün istifadə etmək idmanın inkişafı üçün müəyyən şərait yaratmağa, böyük idmana yol açmağa kömək göstərə bilərdi. Əsas şərtlərdən biri mövcud şəraiti düzgün qiymətləndirmək, bu sahədə ardıcıl, məqsədəuyğun siyasət yürütməkdən ibarət idi. Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycanda bütün sahələrin, o cümlədən idmanın gələcək inkişaf perspektivləri ciddi nəzərə alınmışdır. Bu illərdə ölkədə bir çox idman kompleksləri, qurğuları, zalları tikilmiş, idman meydançaları salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdır. Ölkədə idmanın maddi-texniki bazasının yaradılması üçün çox iş görülmüşdür. Məsələn, təkcə Bakıda 1975-ci ildə 250 idman meydançası və şəhərciyi salınmışdı. 1973-cü ildə respublikanın paytaxtında möhtəşəm idman sarayının təməli qoyuldu. 1974-cü ildə Bakıdan başqa Azərbaycanın 36 rayonunda 59 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərirdi.

Azərbaycanda idmana dövlət səviyyəsində qayğı



**Azərbaycan dövlətinin rəhbəri Heydər Əliyev Monreal Olimpiadasının qızıl medalını qazanmış həndbolçu Rəfiqə Şabanovanı mükafatlandırır. Bakı-1976**



**Azərbaycan Prezidenti Heydər Əliyev Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Xuan Antonio Samarançı, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti Mario Vaskes Rana və Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roqu qəbul etmişdir. Bakı-1994**

müasir idmanın inkişaf tarixi prosesində həmişə birmənalı olmamışdır. Əgər idman mütəxəssisləri yetişdirən ali məktəb Azərbaycanda 1931-ci ildə açılmışdısa, respublikanın mərkəzi stadionunun tikintisi 40-cı illərin əvvəllərində başlanmış, ikinci dünya müharibəsi dövründə iş dayandırılmışdı. Respublika stadionu 1952-ci ildə istifadəyə verildi. Heydər Əliyev millətin, xalqın gələcəyi üçün böyük əhəmiyyət daşıyan, lakin həqiqi dəyəri ilk baxışdan hamıya aydın olmayan işlərin görülməsini həmişə təxirəsalınmaz fəaliyyət saymışdır. Azərbaycan prezidenti həmişə quruculuq tərəfdarı olmuş, tikilib xalqın istifadəsinə verilmiş obyektlərin, o cümlədən idman obyektlərinin dağılmasına qarşı barışmaz mövqe tutmuşdur.





Müstəqilliyin ilk illərində respublikada idmana münasibət son dərəcə aşağı səviyyədə idi. İdman unudulmuş sahələrdən birinə çevrilmişdi. Bunun obyektiv səbəbləri olsa, da subyektiv səbəbləri daha çox idi. İdman meydançası və zallarının ayrı-ayrı adamların əlinə keçməsi, idman avadanlıqlarının dağıdılması 1991-1993-cü illərdə geniş vüsət almışdı.

Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti seçilməsindən sonra ölkədə idmana münasibət dəyişdi. Heydər Əliyev müxtəlif görüş və çıxışlarında idmanın xalqın və dövlətin həyatında necə böyük əhəmiyyət kəsb etdiyini diqqət mərkəzinə çəkərək bu istiqamətdə iş görməyin vacibliyini daim xatırlatmışdır. Azərbaycan prezidenti idmanın inkişaf etdirilməsini həmişə dövlətin mühüm vəzifələri sırasına daxil etmişdir. "Biz respublikasızda əhalimizin, millətimizin sağlamlığı haqqında, fiziki, mənəvi sağlamlığı haqqında düşünürük. Bu gün də





▸ Azərbaycan Prezidenti Heydər Əliyevin Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti Ənvər Çoudri ilə görüşü. Bakı-1995.

▸ Azərbaycan Prezidenti Heydər Əliyevin Avropa Həvəskar Boks Assosiasiyasının prezidenti Emil Jeçev ilə görüşü. Bakı-1999.

düşünürük, xalqımızın gələcəyi üçün də düşünməliyik. Bu bizim vəzifələrimizin içərisində ən böyük, ən əhəmiyyətli vəzifədir."

Respublika prezidentinin idman sahəsində irəli atdığı ilk addım idman meydançaları və zallarının təyinatı üzrə işlədilməsi, onların bərpası haqqında verdiyi göstərişlərdə əksini tapdı. Müstəqilliyin ilk illərində idmana münasibət sahəsində yaranmış vəziyyətdən bəhs edərkən Azərbaycan Prezidenti demişdir: "... 1990-93-cü illərdə Azərbaycanda bütün idman qurğuları dağıdılmışdı. Azərbaycanın ən böyük stadionu bərbad vəziyyətə salınmışdı. Ayrı-ayrı adamlar orada müxtəlif bazarlar, dükanlar açmışdılar, oranı kababxanaya döndərmişdirlər. Bilin, mən bu məsələ ilə tanış olanda Azərbaycanda çox şeylər dağıdılmışdı. Amma Azərbaycanın gəncliyi, idmanı üçün ən vacib olan bu stadionun dağıdılması məni





▸ Azərbaycan Prezidenti Heydər Əliyev məşhur şahmatçı Anatoli Karpov ilə. Bakı- 1997.



həddindən artıq incitdi.

... O zaman mən məsələ qaldırdım ki, orada qayda-qanun yaratmaq lazımdır. Stadionu nəinki bərpa etmək, onu müasir, beynəlxalq standartlar səviyyəsinə qaldırmaq lazımdır.

...Biz oranı qısa bir müddətdə təmizlətdirdik. İndi stadion təmir olunubdur, beynəlxalq standartlar səviyyəsindədir, Azərbaycan gəncliyi üçün fayda verir.

...Baxın, qısa bir müddətdə hər şeyi nə tez dağıtmaq olardı. Həmin dağıntıları qısa bir müddətdə aradan qaldırıb Azərbaycanın bugünkü simasını yaratmaq lazım idi. Biz bunu yaratdıq."

Müstəqillik dövründə ölkə idmanının inkişaf etdirilməsi üçün, şübhə yox ki, ilk növbədə dövlətin idmana münasibətində dəyişiklik yaranmalı idi. Belə dəyişiklik 1993-cü ilin ikinci yarısında Heydər Əliyevin dövlətə başçılıq etməsi dövründən başlandı.

1993-cü ilin noyabrında Azərbaycan Respublikasının Prezidenti dünya və Avropa miqyaslı yarışlarda yüksək nəticələr göstərmiş Azərbaycan idmançılarını qəbul etdi. Bu görüşdə respublika prezidenti qeyd etdi ki, idmançılar dövlətin xüsusi qayğısı ilə əhatə olunmalıdırlar. Bu qayğı ölkəmizdə idmanın inkişafına, istedadlı idmançıların potensial imkanlarının açılmasına xidmət etməlidir. Dövlət başçısı ölkədə idmanın inkişafı üçün geniş imkanlar yaradılacağını bildirdi.

Heydər Əliyev Azərbaycanda Olimpiya Hərəkatının genişlənməsinin də təşəbbüskarı və ilhamçısı oldu. 1994-cü ilin





**Azərbaycan Prezidenti Heydər Əliyev yeniyetmə şahmatçılarla**

aprelində ölkə başçısı Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Xuan Antonio Samarançı, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti Mario Vaskes Ranam, Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roqu qəbul etdi. Qəbulda Azərbaycanda Olimpiya Hərəkatının vəziyyəti və onun inkişaf perspektivləri haqqında geniş fikir mübadiləsi aparıldı. Bu görüşdən üç ay sonra prezidentin fərmanı ilə Azərbaycan Gənclər və İdman Nazirliyi yaradıldı. Fərmanda Nazirliyin başlıca fəaliyyət istiqamətləri qeyd edilmişdi. Prezident ölkədə idmanın inkişafı üçün həyata keçirilməli əsas məsələlər dairəsinə aşağıdakıları daxil etmişdi: mövcud idman bazalarının, stadionların, meydança və zalların qorunması, bərpası və təyinatı üzrə istifadəsinin təmin edilməsi; yeni idman bazalarının, meydançalarının, stadion və zalların tikilməsi, onların zəruri avadanlıqlarla təchizatı; idman bölmələri və klublarının açılması; idman mütəxəssislərinin yetişdirilməsi; ölkə birinciliklərinin və digər yarışların keçirilməsi; idmançıların beynəlxalq yarışlarda iştirakının təmin edilməsi; yüksək idman nəticələri göstərmiş idmançılara diqqət və qayğı göstərilməsi; idmançıların təltif olunması; Azərbaycanda beynəlxalq yarışların keçirilməsi; uşaq və yeniyetmələrin daha geniş miqyasda idmana cəlb olunması.





Qeyd olunan tədbirlər dövlətin idman, gənclərlə iş, əhalinin asudə vaxtının təşkili ilə birbaşa və ya dolayısı ilə məşğul olan strukturlarının fəaliyyəti ilə reallaşdırılmalı idi.

Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar müharibə ölkənin iqtisadiyyatına böyük zərbələr vurmuşdu. Bu dövrdə idmanın inkişafına kifayət qədər vəsait ayırmaq çətin idi. Prezidentin göstərişi ilə idman üçün bütün imkanlardan maksimum istifadə olunurdu. Buna baxmayaraq, ölkə başçısı bunun hələ yetərincə olmadığını qeyd edirdi. O, çıxışlarından birində həmin dövrü səciyyələndirərək demişdir: "Respublikamızın həyatında çətinliklər, problemlər çoxdur. Problemlərdən biri də budur ki, biz idmana istədiyimiz qədər diqqət yetirə bilmirik, vəsait ayıra bilmirik, idmanın inkişafı üçün lazımınca şərait yarada bilmirik." 1995-ci il martın





**Azərbaycan Prezidenti Heydər Əliyev Yeniyetmələrin I Respublika Oyunlarının final mərhələsinin təntənəli açılış mərasimində iştirak edir. Bakı-1998**





**Azərbaycan Prezidenti Heydər Əliyev veteran idmançılar arasında. Bakı-1996**

**Azərbaycan Prezidenti Hteydər Əliyev respublika idman nümayəndə heyətini qəbul etmişdir. Bakı-2000**

5-də Prezident yeni bir fərman imzaladı. Həmin fərmana əsasən Azərbaycan Respublikası əhalisi arasında sağlam həyat tərzinin təbliğ edilməsi və bədən tərbiyəsinin maddi-texniki bazasının inkişaf etdirilməsi, bu sahədə ümumxalq yardımının təşkil olunması məqsədi ilə gənclərin idmana marağını artırmaq və Azərbaycan idmanının beynəlxalq miqyasa çıxmasına real zəmin yaratmaq üçün Azərbaycan Prezidenti yanında idman fondu yaradıldı.

Olimpiya Hərəkatında, Olimpiya Oyunlarında Azərbaycanın layiqincə təmsil olunması üçün ölkə başçısı Atlanta Oyunlarına hazırlıqla bağlı xüsusi sərəncam verdi.

1995-ci ilin martında Prezident Azərbaycan Respublikası idmançılarının təltif edilməsi haqqında fərman imzaladı. Bu fərmanla olimpiya çempionu Nazim Hüseynov "Şöhrət" ordeni, daha on iki nəfər isə "Tərəqqi" medalı ilə təltif olundu. Elə həmin ayda Əl oyunları sarayında Prezidentin iştirakı ilə idman oyunlarına baxış keçirildi. Azərbaycan Prezidenti bu tədbirdə çıxış etdi. Ölkə başçısı çıxışında ölkənin idman ənənələrindən danışdı, idmanın daha da inkişaf etdirilməsi üçün tövsiyələrini





verərək dedi: "İndi müstəqil Azərbaycanda idmanın inkişafı üçün, bədən tərbiyəsinin geniş yayılması üçün daha çox imkan yaradılmışdır. Bu imkanlardan Azərbaycan vətəndaşları səmərəli istifadə etməlidirlər. ...Biz indi müstəqil bir dövlət kimi, dünya miqyasında keçirilən bütün ictimai, mədəni, siyasi tədbirlərdə iştirak edirik və bu baxımdan Azərbaycan idmançılarının müxtəlif beynəlxalq idman yarışlarında iştirak etməsi respublikamız üçün çox əhəmiyyətlidir."

Azərbaycan Respublikasının Prezidenti ölkə həyatının müxtəlif sahələrində əldə olunmuş nailiyyətlər cərgəsində idman nailiyyətlərinin öz dəyəri olduğunu daim qeyd etmişdir. 1995-ci ilin dekabrında beynəlxalq yarışlarda yüksək nailiyyətlər qazanmış idmançılarla görüşündə Heydər Əliyev bu məsələ ilə bağlı demişdir: "Ötən illərdə bizim itkilərimiz çox olmuşdur. Ancaq nailiyyətlərimiz də az deyildir. Bu nailiyyətlər



**Azərbaycan prezidenti Heydər Əliyev Atlanta Olimpiya Oyunlarında respublikanı təmsil edəcək idmançılar arasında. Bakı-1996**

334
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

içərisində idman sahəsində, beynəlxalq yarışlarda əldə olunan nailiyyətlər çox qiymətlidir. Onların qiyməti Azərbaycan xalqının təkcə fiziki cəhətdən yüksək keyfiyyətlərə malik olduğunu nümayiş etdirməkdən ibarət deyildir, həm də müstəqil Azərbaycan Respublikasının dünyada tanıtdırmaqdan ibarətdir."

Ölkəni tanıtdıra biləcək idmançıların yetişdirilməsinin müxtəlif amillərdən asılı olduğunu qeyd edən dövlət başçısı bu işi yalnız idmançı və məşqçinin əməyi, səyi ilə bağlamaq istəyənlərlə, Azərbaycanda idman ənənəsinin olmamasına istinad edənlərlə, ölkədə bu və ya digər idman növünün inkişaf etdirilməsinin qeyri-mümkün sayanlarla heç vaxt razılaşmamışdır. O, çıxışlarından birində demişdir: " Çox narahat olurdum ki, niyə bizim idmançılar yüksək adlar ala bilmirlər? Bizə cürbəcür izahatlar verirdilər. Bəzi adamlar hətta belə hesab edirdilər ki, guya Azərbaycan xalqının, Azərbaycan millətinin idman ənənəsi zəngin olmadığına görə, böyük olmadığına görə və onun böyük tarixi olmadığına görə bizim azərbaycanlılar bu yüksək adları ala bilmirlər. Bəzən belə deyirdilər ki, məsələn, güləşdə bizim azərbaycanlılar müəyyən bir çempion adı ala bilərlər, amma başqa idman növlərində ala bilmirlər.

Düzü, o illər mən bu fikirlərlə daxilən razı olmurdum və açıq da deyirdim ki, bunlar doğru fikirlər deyildir. Bizim xalqımız, millətimiz fiziki cəhətdən, genetik cəhətdən çox sağlam xalqdır, çox sağlam millətdir. Buna görə də ola bilməz ki, bizim idmançılar yüksək nailiyyətlər qazana bilməsinlər."

Azərbaycanda müxtəlif idman növlərinin inkişaf etdirilməsinin bir yolunu da başqa ölkələrin idman təcrübəsindən bəhrələnməkdə, idman sahəsində beynəlxalq əlaqələrin gücləndirilməsində, məşhur idmançıların və idman xadimlərinin, idman təşkilatlarının rəhbərlərinin ölkəmizə xoş münasibətinin yaranmasında görən Heydər Əliyev özü bu istiqmətdə daim iş görmüşdür. Ölkə





müxtəlif problemlərin burulğanında olan dövrlərdə belə, o, idmanın inkişafı ilə bağlı məsələlərə kifayət qədər vaxt ayırmış, konkret işlərin görülməsi üçün göstəriş və tövsiyələrini vermişdir.

1996-cı ilin yanvarında Respublika prezidenti "Neftçi" idman-sağlamlıq mərkəzinin 60-illiyinə və mərkəzin olimpiya qurğusunun açılışına həsr olunmuş mərasimdə iştirak etdi. Həmin mərasimdəki çıxışında ölkə başçısı Azərbaycanda idman sahəsində olan böyük potensialı hərəkətə gətirməyin, onu inkişaf etdirməyin, ona qayğı göstərməyin vacibliyini vurğulayaraq demişdir: "Məhz buna görə də son illər biz, Azərbaycan dövləti bütün çətinliklərə baxmayaraq, müstəqil Azərbaycan Respublikasında idmanın inkişafı üçün lazımi vəsait ayırmağı zəruri hesab etmişik və bundan sonra da bu tədbirləri görəcəyik." 1995-ci il dekabrın 23-də Azərbaycan prezidenti Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti Ənvər




**Azərbaycan Prezidenti Heydər Əliyev Sidney Olimpiya Oyunlarında respublikanı təmsil edəcək idmançılar arasında. Bakı-2000**

Çoudrini qəbul etmiş, onun ölkəmizə səfərini yüksək qiymətləndirmiş, qonaqla Azərbaycan boksunun vəziyyəti, onun gələcək perspektivləri barədə ətraflı fikir mübadiləsi aparmışdır. Ölkədə idmanın bu növünə bundan sonra xüsusi diqqət yetiriləcəyini vurğulayan dövlət başçısı əmin olduğunu bildirmişdir ki, cənab Çoudri Azərbaycan boksçularının daha böyük uğurlar qazanması üçün əlindən gələni əsirgəməyəcək, idmanın bu növünün daha da inkişaf etməsinə əməli yardım göstərəcəkdir. Ənvər Çoudri sonrakı illərdə -1998-2002-ci illərdə də Azərbaycana gəlmiş və bu səfərlər zamanı Azərbaycan prezidenti ilə görüşmüşdür.Azərbaycan boksunun yeni inkişaf mərhələsi də məhz bu dövrdən başlanmışdır. 1996-cı il Atlantada Azərbaycan boks məktəbinin yetirmələri ilk dəfə Olimpiya Oyunlarında çıxış etmişlər, onların ilk debütü medalla nəticələnməsə də ümumən uğurlu olmuşdur. 1999-cu ildə yeniyetmələr arasında boks üzrə növbəti Avropa çempionatı ilk dəfə Azərbaycanda keçirildi. Yeniyetmə boksçularımız bu çempionatda böyük uğur qazandılar.



Azərbaycan Prezidenti Heydər Əliyev Olimpiya İdman Kompleksinin açılış mərasimində iştirak edir. Bakı-2000





Azərbaycan prezidenti çempionatın iştirakçılarına öz təbrik məktubunu göndərdi, Avropa Həvəskar Boks assosiasiyasının prezidenti Emil Jeçevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Azərbaycan boksçuları Sidney Oyunlarına beş lisenziya qazandılar. Bu, boks məktəbimizin böyük uğuru kimi qiymətləndirilməlidir. Sidneydə də boksçularımız ölkənin idman şərəfini ləyaqətlə qorudular. Azərbaycan idmançısı boks üzrə yarışlarda ölkənin ilk olimpiya medalını qazandı. Müəyyən idman növündə nailiyyət qazanmaq üçün ənənənin ol-



Azərbaycan Prezidenti Heydər Əliyev Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roqu və komitənin baş katibi Mario Peskanteni qəbul etmişdir. Bakı-2000



İlham Əliyev Azərbaycan Prezidenti Heydər Əliyevi və Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roqu MOK-un tikinti-quruculuq planları ilə tanış edir. Bakı-2000



Azərbaycan Prezidenti Heydər Əliyev və Avropa Olimpiya Komitəsinin przeidenti Jak Roq Milli Olimpiya Komitəsinin tikdirdiyi idman kompleksinin təntənəli açılışında. Bakı-2000





▸ Azərbaycan Prezidenti Heydər Əliyev Milli Olimpiya Komitəsinin inzibati binasının açılış mərasimində. Bakı-2001



maması haqqında fikirlərin əsassızlığı bir daha sübut edildi. Azərbaycanda isə boksun inkişafı davam etdirilir. 2001-ci ildə Azərbaycanda artıq yeniyetmələrin boks üzrə dünya çempionatı təşkil olundu. Yenə də yeniyetmə idmançılarımız böyük müvəffəqiyyət qazandılar. Hər hansı idman növünün bu və ya digər ölkədə inkişaf etdirilməsi həmin növün ümumiyyətlə inkişafında xüsusi rol oynayır. Bu baxımdan Beynəlxalq Həvəskar Boks Assosiasiyası Azərbaycan prezidentinin boksun inkişafına göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirdi, Heydər Əliyevi Assosiasiyanın ən ali mükafatı ilə təltif etdi. AİBA prezidenti Ənvər Çoudrinin respublikamızda boksun inkişafına göstərdiyi yardım da öz qiymətini aldı. Cənab Çoudri prezidentin fərmanı ilə Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olundu.

Respublika prezidenti beynəlxalq yarışlar sırasında Olimpi-





▸ Azərbaycan Prezidenti Heydər Əliyev Milli Olimpiya Komitəsinin inzibati binasının açılış mərasimində. Bakı-2001





ya Oyunlarının ən mötəbər, ən yüksək yer tutduğunu həmişə diqqət mərkəzinə çəkmiş, ona xüsusi diqqətlə yanaşmış, bu sahə ilə məşğul olanlardan da belə bir münasibət və məsuliyyət tələb etmişdir. Heydər Əliyev Olimpiya Hərəkatının və Olimpiya Oyunlarının bütün dünyadakı nüfuzunun nə dərəcədə yüksək olduğunu, bu sahədə respublikada əməli işlərin görülməsinin zəruriliyini daim əsas götürmüşdür. O, bu barədə demişdir: "Olimpiya Oyunları dünyanın bütün ölkələrini maraqlandırır, burada cəmləşdirir. Hər bir ölkə çalışır ki, Olimpiya Oyunlarında təmsil olunsun." Heydər Əliyev hər hansı bir idman nəticəsinin dəyərini obyektiv qiymətləndirməyi daim təlqin etmiş, idmançının Olimpiya Oyunlarında iştirak etməsi faktının özünün böyük nailiyyət olduğunu vurğulamışdır. 1996-cı ildə Atlanta Oyunlarına yola düşən idman nümayəndə heyəti ilə görüşündə demişdir: "Bu, sadəcə bir nümayəndə heyəti deyil ki, neçə nəfər istəyirsən təyin et, müəyyən et, göndər. Dünyada yeganə haldır ki, bu toplantıya, dünya səviyyəli görüşə gedən nümayəndə heyəti nə dövlət, nə də xalq tərəfindən təyin oluna bilməz. Olimpiya Oyunlarında iştirak etmək hüququ almaq üçün lazimi göstəricilər əldə etmək





Sidney Oyunlarının iştirakçıları Prezident Sarayında. Bakı-2000

gərəkdir. Əgər bunlar olmazsa, Azərbaycan dövləti, Azərbaycan prezidenti də nə qədər çalışsa, o nailiyyəti əldə etməyən adam yığma komandanın tərkibinə düşə bilməz. Ona görə də 23 nəfərdən ibarət olan bu nümayəndə heyəti Azərbaycan Respublikasının idman sahəsindəki imkanını nümayiş etdirir. ...Sizin, yeni Azərbaycan Respublikası komandasının XXVI Olimpiya Oyunlarında iştirak etməsi özü əlamətdar bir hadisədir, Siz oradan hansı nailiyyətlə qayıdacaqsınızsa, bu, məsələnin ikinci tərəfidir."

Əlbəttə, bu ikinci tərəf də həmişə Respublika prezidentinin diqqət mərkəzində olmuşdur. O, idmançılara Azərbaycan idmanını layiqincə təmsil etməyi, ölkənin şan-şöhrətini yüksəklərə qaldırmağı daim tövsiyə etmiş, qəlbən reallığı qiymətləndirmiş, bu sahəyə cavabdeh olan şəxsləri yüksək nəticələrə aparan yolların axtarışına sövq etdirmişdir. Prezident Atlantadan





bir gümüş medalla qayıtmış olimpiyaçılarımızla 1996-cı ilin avqustunda keçirtdiyi görüşdə demişdir: "Sizi Atlantaya, Olimpiya Oyunlarına çox böyük ümidlərlə, arzularla yola saldıq və şübhəsiz ki, daha yüksək nailiyyətlər gözləyirdik. Bir də qeyd edirəm, biz çox şey gözləyirdik. Amma hər bir hadisəyə reallıqdan baxmaq, hər bir hadisəni reallıq əsasında qiymətləndirmək lazımdır. Hesab edirəm ki, reallığa görə sizin nailiyyətiniz görkəmli nailiyyətdir."

1996-cı ilin idman sahəsindəki reallığı belə idi. Təbii ki, ölkə başçısı Atlantada qazanılmış nəticəni belə qiymətləndirməklə gözlənilən daha çox şeyin gələcəkdə əldə olunması üçün konkret işlərin görülməsinin vacibliyini də diqqət mərkəzinə çəkirdi və bu tələbi idmançıların deyil, idmanın inkişafı üçün cavabeh

**1. Azərbaycan Prezidenti Heydər Əliyev məşqçi Vahid Məmmədovu "Şöhrət" ordeni ilə təltif edir**

**2. Azərbaycan Prezidenti Heydər Əliyev məşqçi Rəşid Məmmədovu "Tərəqqi" medalı ilə təltif edir**

**3. Azərbaycan Prezidenti Heydər Əliyev məşqçi Hafiz Cəfərovu "Şöhrət" ordeni ilə təltif edir**

**4. Azərbaycan Prezidenti Heydər Əliyev məşqçi Yaqub Məmmədovu "Şöhrət" ordeni ilə təltif edir**

**5. Azərbaycan Prezidenti Heydər Əliyev məşqçi Rauf Cabbarovu "Tərəqqi" medalı ilə təltif edir**

3.



1.



4.



2.



5.







şəxslərin qarşısında qoyurdu. Bununla yanaşı, əsas yükü, əsas ağırlığı yenə də öz üzərinə götürürək deyirdi: "Azərbaycan Prezidenti kimi şəxsən mən söz vermişəm və indi də bunu təsdiq edirəm ki, idmana xüsusi qayğını öz üzərimə götürürəm. Azərbaycan gənclərinə xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz."

Atlanta Oyunlarında iştirak etmiş milli olimpiya komandasının üzvləri ilə görüşdə Respublika prezidenti növbəti Olimpiya Oyunlarına hazırlığa indidən başlamağın vacibliyini vurğulamış, bu hazırlığın xüsusi sənəd əsasında aparılması haqqında göstəriş verərək demişdir: "O sənəddə dörd il müddətində sizin hansı işlər görəcəyiniz müəyyən edilməlidir. Mən bu barədə sizdən təklif gözləyirəm və əmin ola bilərsiniz ki, lazımi sərəncamlar veriləcək, qərarlar qəbul olunacaq və bunun üçün də lazımi vəsait ayrılacaqdır."

1997-ci ildə Azərbaycanda "Bədən tərbiyəsi və idman haqqında" qanun qüvvəyə mindi. Bu qanun idmanın inkişaf etməsinin hüquqi əsaslarını müəyyənləşdirdi, dövlətin idman siyasətinin göstəricilərindən birinə çevrildi.

Ölkə başçısı respublikada idmanın inkişafını yalnız dörd ildən bir keçirilən Olimpiya Oyunlarında iştirak etməkdə və orada hansısa nailiyyətlər əldə etməkdə görməməyi, ölkədə idmanın geniş yayılmasının təmin olunmasını, kütləvi idmanı inkişaf etdirməyi tövsiyə edirdi. Heydər Əliyev idman obyektlərinin bütünlüklə gənclərin istifadəsinə verilməsini tələb edir, idman qurğularının bərpasına, yeni obyektlərin salınmasına, idmanın bütün növlərini, o cümlədən qeyri-olimpiya növlərini də inkişaf etdirməyə çağırırdı.

Azərbaycan prezidenti insanı yalnız fiziki cəhətdən sağlam-

laşdıran idman növlərinin deyil, həm də əqli inkişafa, analitik düşüncə tərzini formalaşdırmağa, yaradıcılıq qabiliyyətinə müsbət təsir göstərən şahmatın da inkişafını həmişə diqqət mərkəzində saxlamışdır. Onun təşəbbüsü ilə 70-ci illərin axırlarında və 80-ci illərin əvvəllərində ölkənin bütün bölgələrində şahmat məktəbləri, şahmat klubları açılmışdı. Nəticədə respublikada şahmat böyük sürətlə inkişaf etməyə başlamış, müxtəlif yaş dərəcələri üzrə qrossmeystrlər, dünya çempionları yetişmişdilər. Həmin dövrlərdə şahmata verilmiş təkanın nəticəsi idi ki, ölkə şahmat məktəbi keçid dövründə, müstəqilliyin ilk illərində ətalət içərisində olsa da, özünü qoruya bilmişdi. Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etməyə başlayandan sonra bu sahədə yeni dirçəliş başlandı. 1997-ci ilin yanvarında ölkə başçısı şahmat üzrə dünya çempionu Anatoli Karpovu qəbul etdi. Bu görüşdə Azərbaycan şahmatının vəziyyəti, onun inkişaf perspektivləri haqqında fikir mübadiləsi aparıldı.

Ölkədə şahmat məktəbləri yenidən fəaliyyətlərini genişləndirməkdə, uşaq şahmatçılar arasından yeni-yeni istedadlar üzə çıxmaqda idi. Azərbaycan Respublikası Prezidenti 1998-ci ilin fevralında "Azərbaycan uşaq şahmatçıları Teymur Rəcəbov və Vüqar Həşimova dövlət qayğısının artırılması haqqında" sərəncam imzaladı. Həmin ilin sonunda isə Prezident "Azərbaycan uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında" sərəncam verdi. Uşaq şahmatçılara göstərilən bu qayğı çox keçməmiş öz bəhrəsini verməyə başladı. Teymur Rəcəbov tezliklə beynəlxalq qrossmeystr normasını doldurdu, yeniyetmə şahmatçı dünyanın məşhur şahmatçıları arasında ölkəmizi təmsil etməyə başladı.

Azərbaycan prezidentinin idmana göstərdiyi diqqət və qayğı beynəlxalq idman və olimpiya təşkilatlarında da böyük əks-











- Azərbaycan Prezidenti Heydər Əliyev olimpiya çempionu Zemfira Meftahəddinovanı "Şöhrət" ordeni ilə təltif edir
- Azərbaycan Prezidenti Heydər Əliyev olimpiya çempionu Namiq Abdullayevi "Şöhrət" ordeni ilə təltif edir
- Azərbaycan Prezidenti Heydər Əliyev olimpiadanın bürünc medalçısı Vüqar Ələkbərovu "Tərəqqi" medalı ilə təltif edir

sədaya səbəb oldu. 1997-ci ildə Milli Olimpiya Komitələri Assosiasiyası İslandiyanın Reykyavik şəhərindəki Baş Məclisində Azərbaycan prezidentini Olimpiya Hərəkatı və idman sahəsində böyük xid-mətələrinə görə görkəmli dövlət xadimlərinə verilən "Olimpiya ləyaqəti" mükafatı ilə təltif etdi.

Ölkədə idmanın və Olimpiya hərəkatının inkişaf etdirilməsi ilə bağlı dövlət səviyyəsində atılan addımlar, görülən işlər isə bir-birini əvəz edirdi. 1998-ci ilin fevralında Azərbaycan Respublikası Prezidenti "XXVII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında" sərəncam imzaladı. Bu sərəncam Olimpiya Oyunlarına hazırlıq işinə güclü təkan verdi. Həmin ilin mayında prezident Yeniyetmələrin 1-ci respublika Oyunlarının final

mərhələsinin təntənəli açılışında iştirak etdi. Ölkədə idmanın kütləviləşdirilməsi, gənc istedadların müəyyənləşdirilməsi istiqamətində irəliyə doğru daha bir addım atıldı. İlin sonunda "Dinamo" cəmiyyətinin idman-sağlamlıq mərkəzinin idman kompleksinin açılış mərasimi oldu. Bu mərasim Respublika Prezdentinin iştirakı ilə keçdi. Bu mərasimdəki nitqində Heydər Əliyev demişdir: "İdmanın, bədən tərbiyəsinin inkişafı üçün görülən işlər və gələcəkdə görəcəyimiz işlər bizim dövlət, hökumət siyasətimizin əsas istiqamətlərindən biridir."

Beləliklə, yeni minilliyin astanasında Azərbaycanda idmana dövlət səviyyəsində diqqət və qayğı günbəgün artırdı.

Beynəlxalq Olimpiya Komitəsi bəşər tarixinin yeni əsrinin, yeni minilliyinin başlanması münasibətilə, öz ölkələrində Olimpiya Hərəkatının inkişafına, olimpiya ideallarının yayılmasına rəvac verən, onu dəstəkləyən dövlət başçılarını təbrik etmək üçün xüsusi orijinal hədiyyə hazırlamışdı. Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Xuan Antonio Samarançın Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə ünvanladığı məktubda göstərilirdi ki, Beynəlxalq Olimpiya Komitəsi 2000-ci il münasibətilə Azərbaycan dövlətinin başçısına məşhur heykəltəraş Naq Arnoldinin "2000-ci ilin olimpiya qapıları" adlı əsərini hədiyyə edir. Həmin əsər Azərbaycan prezidentinə onun idmançılarla növbəti görüşündə təqdim edildi.

2000-ci ilin olimpiya qapıları Azərbaycanın üzünə açıldı. Bu ildə Azərbaycan idmançıları respublikanın bayrağı altında ikinci dəfə Yay Olimpiya Oyunlarında iştirak etdilər. Milli Olimpiya Komitəsinin apardığı gərgin iş, dövlət başçısı tərəfindən idmana verilən dəstək bu dəfə Azərbaycan olimpiyaçılarının tərkibcə daha çox olmasına imkan yaratdı.

2000-ci il avqustun 25-də Zuğulbadakı "Gənclik" kompleksində XXVII Yay Olimpiya Oyunlarına gedən idmançılarla prezidentin görüşü oldu. Həmin görüşdə ölkə başçısı dörd il əvvəl olduğu kimi, bu dəfə də olimpiyaçılara xeyir-dusını, tövsiyələrini verdi, onlara uğurlar arzuladı. Olimpiyaçılar ölkə başçısına verdikləri vədə Sidneydə əməl edə bildilər. İki qızıl, bir bürünc medal qazanmış idmançılarımız 199 ölkə arasında 34-cü yeri tutdular.

Oktyabrın 18-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Sidney şəhərində keçirilmiş XXVII yay olimpiya oyunlarında iştirak etmiş qalib idmançılarla, onları bu qələbəyə hazırlayanlarla ölkənin müstəqilliyini əməlləri ilə təsdiq edənlərlə görüşdü, onları möhtəşəm bayram münasibətilə səmimi qəlbdən təbrik etdi, xalqımıza, millətimizə sülh, əmin-amanlıq, rifah, tərəqqi və daimi müstəqillik arzulayaraq dedi: "Bu gün eyni zamanda bizim idmanımızın bayramıdır. Xalqımızın idman qələbələri ilə əlaqədar olan bayramıdır". Ölkə başçısı bu



**Azərbaycan Prezidenti Heydər Əliyev Sidney Oyunlarında mükafat qazanmış idmançılar və onların məşqçiləri arasında. Bakı-2000**

dəfə iftixar və qürur hissini belə ifadə etdi:" Mən bu gün bütün xalqımızın iftixar hissini ifadə edərək deyirəm ki, Azərbaycan idmançıları, Azərbaycanı təmsil edən bizim nümayəndə heyəti verdikləri sözə sadiq olmuşlar, çalışmışlar, yarışmışlar, vuruşmuşlar və böyük qələbələr əldə etmişlər. ... 200-ə qədər ölkənin nümayəndələrinin, idmançılarının - demək, bütün dünyanın, bütün yer kürəsinin idmançılarının toplaşıb yarış keçirdiyi bir prosesdə gənc müstəqil Azərbaycanın, o qədər də böyük olmayan bir ölkənin idmançıları iki qızıl medal, bir bürünc medal aldılar və bir neçə idmançımız da çox yaxşı yerlər tutdu. Onlar Azərbaycanın şan-şöhrətini qaldırdılar. Onlar buradadırlar. Biz onlarla görüşə gəlmişik.

"Siz bizə sevinc gətirmisiniz. Siz bizim xalqımızda böyük ruh yüksəkliyi yaratmısınız. Siz Azərbaycan xalqının, Azər-



Azərbaycan Prezidenti Heydər Əliyev Avropa top komanda kubokunu qazanmış "AzərReyl" komandasının üzvləri arasında.Bakı-2002







Azərbaycan Prezidenti Heydər Əliyev Sidney Yay Parolimpiya Oyunlarında iştirak etmiş idmançılarla. Bakı-2000

baycan övladının nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirmisiniz. Sizə bir daha təşəkkür edirəm. Sizi bir daha təbrik edirəm.

Amma eyni zamanda siz avqustun 25-də verdiyiniz sözlərin yerinə yetirilməsi haqqında yəqin ki, raport vermək istəyirsiniz. Doğrudur, siz raportunuzu uzaq Sidneydə verdiniz və oradan gələn sədalar artıq sizin verdiyiniz sözlərə sadiq olduğunuzu göstərdi. Eyni zamanda bu gün sizinlə görüşə gəlmişik. Sizi görmək istəyirik və sizin sözlərinizi eşitmək istəyirik."

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev tribunaya qalxaraq Sidney dövründə görülmüş işlər və əldə olunmuş nəticələr haqqında çıxış etdi. Sonra olimpiya medalçıları - Zemfira Meftahəddinova, Namiq Abdullayev, Vüqar Ələkbərov, yığma komandanın məşqçiləri Hafiz Cəfərov, Yaqub Məmmədov çıxış etdilər. Onlar dövlət baş-

**Azərbaycan prezidenti Heydər Əliyev Maştağa idman kompleksinin açılış mərasimində. Bakı-2001**







çısına idmana göstərdiyi diqqət və qayğıya görə təşəkkürlərini bildirdilər, öz növlərində qazandıqları nailiyyətdə Milli Olimpiya Komitəsində görülən işlərin rolunun çox olmasından danışdılar. İdman sahələrindəki fəaliyyətlərini bundan sonra daha əzmlə davam etdirəcəklərinə söz verdilər.

Azərbaycan prezidenti Heydər Əliyev olimpiyaçıların əldə etdikləri nailiyyətləri, onların əməyini yüksək qiymətləndirərək dedi: "Sizin hər biriniz böyük zəhmət çəkmisiniz, yarışda iştirak etmisiniz. Siz dövlətin idmançılara qayğısı haqqında burada danışdınız, bizə öz təşəkkürlərinizi bildirdiniz. Ancaq bu, bizim borcumuzdur. Bu, dövlətin borcudur. Dövlətin, hökumətin hər bir sahədə çox böyük vəzifələri vardır. Əgər biz hansı sahədəsə nəyəsə nail ola biliriksə, demək, biz öz borcumuzu yerinə yetirə bilirik. Mən bu gün böyük qürur hissi





ilə deyirəm ki, biz idmana, bədən tərbiyəsinə qayğı göstərərək millət, xalq, vətən qarşısında öz borcumuzu yerinə yetiririk". Ölkə başçısı Milli Olimpiya Komitəsinin ölkədə Olimpiya Hərəkatının inkişafı üçün gördüyü işlərə münasibətini bildirdi, kütləvi işin təşkilatçıqdan asılı olduğunu vurğuladı. Belə böyük qələbələrin qazanılması üçün hər bir idmançıda öz dövlətinə, xalqına xidmət etmək hissinin güclü olmasını qeyd etdi. Ölkə başçısı müstəqillik illərində ölkədə baş vermiş və baş verməkdə olan daxili siyasi, iqtisadi prosesləri qısaca şərh etdi. Prezident idmançılara qazanılmış nailiyyətlərdən arxayınlaşmamağı tövsiyə etdi, Milli Olimpiya Komitəsini başladığı böyük işləri əvvəlki kimi uğurla və əvvəlki kimi yüksək templə davam etdirməyə çağıraraq dedi: "Milli Olimpiya Komitəsinin böyük planları vardır. İlham Əliyev burada dedi ki, Milli Olimpiya Komitəsi üçün böyük bir kompleks tikilibdir. Biz bir neçə gündən sonra onun açılışında iştirak edəcəyik. Güclü maddi-texniki bazanın yaranması əsas şərtlərdən biridir. Milli Olimpiya Komitəsinin böyük xidmətlərindən biridir ki, komitə bu işlə ciddi məşğul olur və dövlətdən heç bir vəsait almadan, öz imkanları ilə idman üçün, olimpiyaçılar üçün yeni-yeni böyük müəssisələr yaradır. Biz bunu alqışlayırıq, dəstəkləyirik. Biz lazım olan köməyi bundan sonra da edəcəyik. Yenə də deyirəm, ümidvaram ki, siz bu nailiyyətlə qane olmayacaqsınız, çalışacaqsınız, gələn olimpiya oyunlarına qədər olan müddətdə müxtəlif dünya yarışlarında iştirak edəcəksiniz və böyük nailiyyətlərinizlə bizi daha da sevindirəcəksiniz."

Bu sözlər ölkə başçısının idmana qayğısının ifadəsi kimi idmançıları yeni-yeni qələbələrə ruhlandırdı. Görüşdə Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Xuan Antonio Samarançın Azərbaycan prezidentinə ünvanladığı teleqramın mətni oxundu. Teleqramda deyilirdi:

"Azərbaycan Respublikasının prezidenti zati-aliləri cənab Heydər Əliyevə

Cənab prezident və mənim dostum!

Yeni minilliyin ilk oyunları, olimpiya tarixində ən yaxşı oyunlar hesab olunan XXVII yay olimpiya oyunları Sidneydə bağlı elan edildi. Dünya idmanıçılarının, o cümlədən Azərbaycan idmançılarının əla çıxışları oyunların uğurla başa çatmasına səbəb oldu. Buna görə Sizə səmimi təbriklərimi və Milli Olimpiya Komitəsinə göstərdiyiniz dəstəyə görə öz minnətdarlığımı bildirirəm.

Cənab prezident, xahiş edirəm, Sizə olan dərin ehtiramımı qəbul edəsiniz.

Xuan Antonio SAMARANÇ,

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti

Lozanna, 6 oktyabr 2000-ci il"

Sidney Oyunlarının iştirakçıları ilə görüşdə Respublika Prezidenti çıxışının sonunda dedi: "Bu gün Azərbaycanın müstəqilliyinin, yeni müstəqillik haqqında qəbul olunmuş Konstitusiya Aktının 9-cu ildönümüdür. Xalqımız bunu bayram edir. Biz bayram əhval-ruhiyyəsindəyik. Siz bizim bayramımızı daha da yüksəklərə qaldırdınız, bəzədiniz, gözəlləşdirdiniz. Ona görə də sizə bir daha təşəkkür edirəm. Mən Olimpiya Oyunlarında əldə etdiyiniz qələbə münasibətilə sizi təbrik edirəm. Mən bütün Azərbaycan xalqını təbrik edirəm. Bir daha deyirəm, sizin bu nailiyyətiniz Azərbaycanın dövlət müstəqilliyinin bəhrəsidir və 1993-cü ildən başlayaraq Azərbaycan iqtidarının apardığı doğru, düzgün daxili və xarici siyasətinin nəticəsidir."

2000-ci il oktyabrın 21-də Azərbaycan Milli Olimpiya Komitəsinin tikdirdiyi idman kompleksi istifadəyə verildi. Azərbaycan prezidenti kompleksin açılış mərasimində iştirak etdi. Prezident Milli Olimpiya Komitəsinin işini yüksək qiymətləndirdi.









Azərbaycan prezidenti Heydər Əliyev Naxçıvan idman kompleksinin açılış mərasimində. Naxçıvan - 2002



Bunula yanaşı o, komitənin gələcək fəaliyyəti ilə bağlı tövsiyələrini də verərək dedi: "Hesab edirəm ki, bu, Milli Olimpiya Komitəsinin işinin hələ başlanğıcıdır. Milli Olimpiya Komitəsi əldə etdiyi təcrübədən, təbiidir ki, ictimaiyyətin bu işlərə verdiyi yüksək qiymətdən ruhlanaraq, bundan sonra öz iş dairəsini genişləndirəcək, maddi-texniki baza yaratmaq sahəsində çox işlər görüləcəkdir. Hesab edirəm ki, gələn olimpiya oyunlarına qədər Azərbaycanda idman daha da yüksələcək, daha da inkişaf edəcəkdir.

Elə həmin gün ölkə başçısı Azərbaycanda səfərdə olan Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roqu və həmin komitənin baş katibi Mario Peskanteni qəbul etdi.

Dövlətimizin başçısı Heydər Əliyev qonaqları mehribanlıqla salamlayaraq onların Azərbaycana gəlişinin böyük əhəmiyyət daşıdığını bildirmiş, ölkəmizdə olimpiya hərəkatının son bir neçə ildə inkişaf etdiyini və xüsusilə beynəlxalq olimpiya təş-



**Azərbaycan Prezidenti Heydər Əliyev Milli Olimpiya Komitəsinin hesabatını dinləyir. Bakı- 2000**

kilatları, o cümlədən Avropa Olimpiya Komitəsi ilə əlaqələrin yaradılmasını məmnunluqla qeyd etmişdir.

Cənab Jak Roq səmimi qəbul üçün təşəkkürünü bildirərək demişdir ki, sizin ölkənizi ziyarət etməkdən böyük şərəf duyuram. Bu mənim Azərbaycana ikinci səfərimidir. Altı il bundan öncə, 1994-cü ildə mən prezident Samarançı Azərbaycana səfəri zamanı müşaiyət etmişdim. Bu ilin aprelində Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsi Azərbaycana gələcək, çox güman ki, Azərbaycan Milli Olimpiya Komitəsinin yeni binasında görüşlər keçirəcəyik. Azərbaycan Milli Olimpiya Komitəsinin əldə etdiyi uğurlar bizi də sevindirir. Sizin Milli Olimpiya Komitənizdə təcrübəli mütəxəssislər çalışır, məncə, bu təşkilat yeni yaranmış Milli Olimpiya Komitələrinə nümunə ola bilər. Cənab prezident, ölkənizdə idmanın inkişaf etdirilməsinə göstərdiyiniz qayğıya görə, minnətdarlıq əlaməti olaraq, Avropa olimpiya komitələri adından Sizə kiçik hədiyyələr bağışlamaq istəyirəm." Jak Roq Azərbaycan prezidenti Heydər Əliyevə dövlət başçıları üçün xüsusi hazırlanmış "Olimpiya Xartiyası"nı, üstündə Avropanın təsvir olunduğu gümüş nimçəni və Avropa Olimpiya Komitəsinin bayrağını təqdim etdi.

2001-ci il martın 26-da Milli Olimpiya Komitəsinin yeni inzibati binasının açılış mərasimi keçirildi. Bu mərasimdə də ölkə başçısı iştirak etdi. Ölkə başçısı MOK üzvləri və mərasimə toplaşmış qonaqlar qarşısında çıxış etdi. Milli Olimpiya Komitəsinin quruculuq işlərinin təqdirə layiq olduğunu qeyd edən prezident bu təşəbbüsə qoşulmağa çağırdı, qarşıdan gələn Afina olimpiya oyunlarına ciddi hazırlıq işləri aparmağı tövsiyə edərək dedi: "Mənə İlham Əliyevin verdiyi məlumata görə, bu işlər aparılır. Amma bir o deyildir. Gərək Azərbaycan nümayəndələri bütün başqa beynəlxalq yarışlarda iştirak etsinlər. Ola bilər, bir dəfə qalib olsun, bir dəfə məğlub olsunlar. Bu, narahat etməməlidir. Azərbaycan gəncləri, Azərbaycan nümayəndələri beynəlxalq yarışlarda nə qədər çox iştirak etsələr, o qədər çox təcrübə toplayacaqlar. Onlar o yarışların bütün incəliklərini öyrənəcəklər. O qədər həvəslənəcəklər ki, bu yarışlarda yenidən iştirak edib, yeni nailiyyətlər qazanmağa çalışacaqlar ki, nəhayət, istədikləri zirvəyə qalxa bilsinlər. Bu, bizim Milli Olimpiya Komitəsinin qarşısında duran vəzifədir."

Azərbaycan Prezidenti respublikada idmanın, bədən tərbiyəsinin kütləviləşdirilməsini də öz çıxışlarında dəfələrlə ön plana çəkərək demişdir: "Biz idmanı, bədən tərbiyəsini kütləvi etməliyik. Gənclərin tam əksəriyyətini buna cəlb etməliyik, bu, Azərbaycan vətəndaşının hərtərəfli gələcəyi üçün təməldir. Buna nail olmaq üçün təbiidir ki, lazımi imkanlar da yaratma-



Gəncə Olimpiya İdman Mərkəzinin açılış mərasimi. Gəncə - 2002





lıyıq, lazımi şərait də yaratmalıyıq." Ölkə başçısı çıxışlarında idmanın inkişafına hərtərəfli yardım göstərməyin vacibliyini daim vurğulamış, hamını bu işə kömək etməyə çağırmışdır: "Mən bu fürsətdən istifadə edərək, bütün təşkilatları - həm dövlət, həm də qeyri-dövlət təşkilatlarını, biznes aləmini, hamını Azərbaycanın gələcəyi üçün vacib olan bu böyük işə dəvət edirəm, çağırıram. Güman edirəm ki, mənim səsim eşidiləcək və biz gələcək illərdə bunların nəticəsini görəcəyik. Artıq nümunə vardır. Nümunə ondan ibarətdir ki, Milli Olimpiya Komitəsi son illərdə olimpiya hərəkatının inkişaf etdirilməsi üçün müxtəlif təşkilati tədbirlər, təbliğati tədbirlər həyata keçirib Azərbaycanın Milli Olimpiya Komitəsini lazımi səviyyəyə qaldırıbdır. Ancaq bu, məsələnin bir hissəsidir. Eyni zamanda Milli Olimpiya Komitəsi qısa bir müddətdə öz daxili imkanlarından istifadə edərək, idman, bədən tərbiyəsi işinin maddi-texniki bazasını yaratmaqla məşğul olubdur. Bu, çox sevindirici haldır."

Milli Olimpiya Komitəsi Azərbaycan prezidentinin tövsiyə və göstərişlərini öz işində əsas götürür. 2001-ci ilin sonunda Bakının Maştağa qəsəbəsində daha bir idman mərkəzi istifadəyə verildi. Ölkədə beynəlxalq yarışların keçirilməsi sahəsində yeni-yeni işlər görüldü. İlk dəfə olaraq komanda idman növlərində Azərbaycan voleybolçuları Avropa miqyasında uğur qazandılar. Avropa qadın voleybol komandaları arasında top-komanda kuboku əldə olundu. Bu kubok uğrunda yarışların final mərhələsi Bakıda keçirildi. Respublika prezidenti kuboku qazanmış voleybol komandamızın üzvlərin qəbul etdi, onlara Azərbaycan idmanının inkişaf və çiçəklənməsində yeni-yeni uğurlar arzuladı.

2002-ci ilin mayında yaşlılar arasında sərbəst güləş üzrə 45-ci Avropa çempionatı keçirildi. Prezident Avropa çempionatının iştirakçılarına təbrik məktubu ünvanladı, onların nümayəndə heyətini qəbul etdi, açılış mərasimində iştirak etdi, çempionatın tamaşaçılarından biri oldu, güləşçilərimizin çıxışlarını həyəcanla izlədi. İdmançılarımız respublika prezidentinin gəlişini öz qələbələri ilə qeyd etdilər.

Ölkədə idmanın maddi-texniki bazasını inkişaf etdirməyi qarşısına məqsəd qoymuş Milli Olimpiya Komitəsi ölkənin səfalı guşələrindən biri olan, lakin Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bu gün də blokada şəraitində yaşayan Naxçıvan şəhərində də iki zaldan ibarət universal idman kom-

pleksinin inşasını bütün mövcud çətinliklərə baxmayaraq 2002-ci ilin mayında başa çatdırdı. 2002-ci il iyunun 15-də Naxçıvan şəhərində yeni idman kompleksinin təntənəli açılış mərasimi keçirildi. Bu açılış rəsmi dövlət bayramı "Qurtuluş günü"nə təsadüf etdi. Ölkə başçısı Heydər Əliyev açılış mərasimində iştirak etmək üçün Naxçıvana səfər etdi. Mərasimdə geniş nitq söyləyən ölkə başçısı Muxtar Respublikaya gəlişinin səbəbini açıqlayarkan dedi: "Bu gün bayram günü mənim sizinlə bir yerdə olmağımın bir səbəbi də ondan ibarətdir ki, Naxçıvanda beynəlxalq standartlara uyğun olan müasir tələblərə cavab verən böyük Olimpiya İdman Kompleksi tikilib və mən də onun açılışına gəlmişəm ki, bu şad günü sizinlə birlikdə qeyd edim."

Ölkə başçısı blokada şəraitində yaşayan Naxçıvanda olimpiya idman kompleksinin inşa edilib istifadəyə verilməsini mühüm hadisə kimi qiymətləndirdi. " Bu çox əlamətdar bir hadisədir. Bu hadisəyə münasibətlə sizi ürəkdən təbrik edirəm. Hesab edirəm ki, siz bu olimpiya kompleksinin Naxçıvan üçün nə qədər faydalı olduğunu bir neçə aydan, bir neçə müddətdən sonra daha yaxşı qiymətləndirə biləcəksiniz."

Milli Olimpiya Komitəsinin son beş ildə gördüyü işləri yüksək qiymətləndirən Prezident Heydər Əliyev nitqində qeyd etdi ki, "beləliklə, indi Azərbaycanda idmanın, bədən tərbiyəsinin böyük maddi-texniki bazası yaranır. Biz bu bazanı yaratmaq istəyirik. Ancaq bizim Milli Olimpiya Komitəsinə büdcədən vəsait ayırmağa imkanımız yoxdur. Onlar öz imkanlarından istifadə edirlər. İndi görün, bu işə nə qədər sədaqətlidirlər, bu işi nə qədər sevirlər. Hər şeyi kənara qoyub bunları edirlər."

Naxçıvanda yeni idman kompleksinin açılışından iki ay keçməmiş respublikanın başqa bir şəhərində, Gəncədə də yeni idman qurğusu istifadəyə verildi. Təntənəli açılış mərasimi





yenə də ölkə başçısının iştirakı ilə keçdi. Azərbaycan Prezidenti Heydər Əliyevin idmana, Olimpiya Hərəkatına diqqət və qayğısı daim davam edir. Onun çıxışlarında səslənən "Azərbaycan Milli Olimpiya Komitəsinin qurub-yaratdıqları bir adam üçün deyil, millət, xalq, ölkədə idmanın inkişafı üçündür!", "Biz idmana, bədən tərbiyəsinə qayğı göstərərək millət, xalq, vətən qarşısında öz borcumuzu yerinə yetiririk", "Biz quruculuq işlərini aparmışıq, aparırıq və gələcəkdə daha sürətlə aparcağıq", "Gələcək Olimpiya Oyunlarına qədər Azərbaycanda idman daha da yüksələcək, daha da inkişaf edəcəkdir" kəlamları gələcəyə nikbin gözlə baxmağa əsas verir. Başqa cür də ola bilməz. Çünki ***Azərbaycan Prezidenti Heydər Əliyev respublikada idmanın, Olimpiya Hərəkatının ən böyük pərəstişkarı və təbliğatçısıdır.***



| | |
|---|---|
| **Layihənin rəhbəri:** | *İlham Əliyev* |
| **Müəliflər:** | *Çingiz Hüseynzadə* |
| | *Cəmaləddin Rəhmanov* |
| **Dizayner:** | *Akif Əliyev* |
| **Fotoqraflar:** | *Rafiq Bağırov, Oktay Aydınoğlu,* |
| | *Yaşar Xəlilov, İlqar Cəfərov,* |
| | *Dilavər Nəcəfov* |
| **Texniki redaktorlar:** | *Səlim Orucov* |
| | *Kəmalə Əliyeva* |
| **Korrektor:** | *Məsud Mahmudov* |